Respublika Fənn Olimpiadalarının (RFO) final mərhələsinin keçirilmə tarixləri müəyyən olunub.

RFO-nun final turu bütün fənlər üzrə Azərbaycan Texniki Universitetinin idman zalında keçiriləcək. Koordinasiya prosesi isə kimya fənni üzrə onlayn şəkildə, digər fənlər üzrə isə əyani şəkildə Təhsil Texnologiyaları Mərkəzində baş tutacaq.

Final turunda iştirak hüququ qazanan şagirdlər buraxılış vərəqələrini portal.edu.az saytında şəxsi kabinetlərindən əldə edə bilərlər.

Olimpiadaların final mərhələsinə gələrkən şagirdlərdən buraxılış vərəqəsi və şəxsiyyət vəsiqəsi gətirmələri tələb olunur.